

**Nailə Vəlixanlı**
*Milli Azərbaycan Tarixi Muzeyinin direktoru*
*tarix elmləri doktoru, akademik*

## Azərbaycan Ərəb Xilafətinin tərkibində
## (VII əsrin ortaları-IX əsrin birinci yarısı)

### *Ərəblərin Azərbaycana hücumları*

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında yeni dünya dini–islamın yaranması cəmiyyətin konsolidasiyasına, əsrin 30-cu illərində isə yeni dövlətin-Ərəb Xilafətinin təşəkkül tapmasına gətirib çıxartdı. Gənc ərəb dövlətinin az sonra qüdrətlənərək həyata keçirdiyi işğalçı yürüşləri İspaniyadan Çin hüdudlarınadək geniş bir ərazidə yaşayan müxtəlif ölkə xalqlarının, o cümlədən azərbaycanlıların həyatında köklü dəyişikliklər etdi. Çox qısa müddətdə dövrün ən böyük imperiyalarından olan Sasanilər dövlətinin bütün, Bizansın isə böyük bir hissəsi yeni yaranmış imperiyanın tərkibinə qatıldı. Azərbaycana ilk hücum 643-cü ildə, xəlifə Ömərin (634-644) əmri ilə baş verdi. Azərbaycan mərzbanı İsfəndiyarın ölkənin müxtəlif şəhərlərindən topladığı ordu bir neçə gün davam edən gərgin müqavimətə baxmayaraq, Ərdəbil yaxınlığında məğlub edildi. Ərəblərin sonrakı döyüşlərdə əldə etdikləri qələbələr azərbaycanlıları onlarla "əmin-amanlıq" fərmanı adlandırılan sülh müqaviləsi bağlamağa məcbur etdi[1]. Ərdəbili tutduqdan sonra Xilafət ordusu Bab əl-Əbvab (Qapılar qapısı) adlandırdıqları Dərbəndin strateji əhəmiyyətini nəzərə alaraq, Xəzər dənizi sahili ilə şimala doğru hərəkət etdi. Uzun sürən mühasirədən sonra Sasanilərin şimal sərhədlərinin mərzbanı ilə təslim və aman müqaviləsi imzalandı. Ərəblərin şimala, xəzərlərin ölkəsinə davam edən hücumları, nəhayət, Bələncər yaxınlığında məğlubiyyətləri ilə nəticələndi. Bununla onların

[1] Ət-Təbəri. Tarix ər-rusul va-l-muluk. Məhəmməd əl-Fəzl İbrahimin nəşri. Qahirə, 1968, c. I, s. 2661 (ərəb dilində).

Azərbaycana birinci yürüşləri də başa çatdı. Lakin həmin dövrdə Xilafətin mərkəzində baş verən siyasi sabitsizlikdən istifadə edən Azərbaycan əhalisi üsyana qalxaraq, bağlanılmış müqavilələrin şərtlərini yerinə yetirməkdən imtina etdi[2].

Ərəblərin yeni hücumu xəlifə Osmanın (644-656) əmri ilə elə həmin illərdə (645-646), Azərbaycanın Arazdan cənubdakı ərazilərinin təkrar işğalı, yeni müqavilənin bağlanması ilə nəticələndi. Azərbaycanlılar təzminatla yanaşı daha 800 min dirhəm verməyə boyun oldular[3]. Ərəb sərkərdəsi Salman ibn Rəbiənin ordusunun Arazı keçərək, Albaniya (Arran) ərazisinə hücumu ilə tarixi Azərbaycan ərazisinin şimal torpaqlarının işğalı başlandı. İlk dəfə hələ 640-cı ildə Bizans istiqamətindən edilən hücum nəticəsində ələ keçirilmiş Dəbil şəhəri yenidən tutuldu. Bu şəhərin əhalisi ilə sülh müqaviləsi bağlandıqdan sonra Azərbaycanın Naxçıvan şəhərinə də hücum baş tutdu[4]. Daha sonra Beyləqan, Bərdə uğrunda döyüşlər baş verdi. Kürün həm sağsahil (Ərsak, Uti, Sakasena, Şəmkir və eləcə də Muğan), həm də solsahil torpaqları (Qəbələ, Şəki, Şirvan, Lakz, Təbərsaran və b.) ələ keçirildi, yerli hakimlərlə müqavilələr bağlanıldı. Xilafət qoşunlarının Xilafət-Bizans, Xilafət-Sasanilər dövləti qarşıdurmalarının hələ də başa çatmadığı bu dövrdə bir neçə cəbhədə vuruşması bağlanılan müqavilələrin şərtlərinin dəfələrlə pozulmasına, eyni yerin bir neçə dəfəyə alınmasına səbəb olurdu.

## *VII əsrin ikinci yarısında Xilafət-Bizans və ərəb-xəzər qarşıdurmalarının siyasi-ideoloji vəziyyətə təsiri*

Feodal dağınıqlığın hələ də hökm sürdüyü bu ağır illərdə Xilafətə qarşı vuruşmanı əbəs bilən atasının təhriki ilə Albaniya hökmdarı Cavanşir paytaxtı tərk edərək, ata-baba mülkü Girdimana çəkilmişdi[5]. O, vəziyyətin gərginliyini yaxşı dərk edir, ərəblərə qarşı təkbaşına mübarizənin mümkün olmadığını başa düşürdü. Nəhayət, Cavanşir çıxış yolunu Bizansla yaxınlaşmaqda, "qarşılıqlı ittifaq"

---

[2] Yenə orada
[3] Yenə orada, s. 2805, 2806.
[4] Əl-Bəlazuri. Kitab Futuh əl-Buldən. M.de.Quyenin nəşri. Lugduni Batavorum, 1866, s. 200 (ərəb dilində).
[5] Kalankatuklu M. Albaniya tarixi. Bakı, 1993, s. 122.

yaratmaqda görür. Xilafətin bir tərəfdən Bizans və xəzərlərlə, digər tərəfdən mərkəzdə qarışıqlıq törədən xəlifəyə müxalif qüvvələrlə başının qarışmasından istifadə edən Cavanşir ölkəsinin Bizansın təbəəliyini qəbul etməsinə razılıq verir[6].

662-ci ildə Dərbənddəki ərəb qoşununu məğlub edən xəzərlər Kür çayınadək irəliləyə bilmiş, lakin Cavanşirin ordusu tərəfindən basılmış və geri dönmüşdü[7]. 664-cü ildə baş verən yeni hücum zamanı xəzərlər Araz sahillərinə çatmış, lakin onların Albaniya ilə bağladıqları sülh sazişi, az sonra Cavanşirin Xəzər ölkəsi xaqanının qızı ilə baş tutan izdivacı bölgədə nisbi də olsa sakitlik yaratmışdı. Bununla belə, Albaniya hər üç ölkəyə vergi ödəməli olmuşdu. Moisey Kalankatukluya görə, verginin heç olmazsa Xilafət tərəfindən azaldılması məqsədilə Cavanşir iki dəfə (667 və 670-ci illərdə) Dəməşqə, xəlifə Müaviyənin görüşünə getmişdi. Ona böyük etimad göstərilmiş, vergi 1/3 azaldılmış, bütövlükdə Albaniyanın, o cümlədən əs-Sisəcanın (Sünikin) "ixtiyarı" ona verilmişdi[8]. Lakin Cavanşirin hakimiyyəti saxlamaq naminə həyata keçirdiyi çevik siyasəti Albaniyanın daxili müstəqilliyini saxlaya bildisə də, onun özünün həyatını itirməsinə, bizanspərəst qüvvələr tərəfindən öldürülməsinə səbəb oldu. Bu isə xəzərlərin sülhü pozaraq, 685-ci ildə ölkənin qərb sərhədlərinə çatan yeni və daha şiddətli hücumları ilə nəticələndi.

Elə həmin il Xilafətlə Bizans arasında barışıq sazişi əldə olundu. Cənubi Qafqaz ölkələrindən gələn verginin iki imperiya arasında bərabər bölünməsi qərara alındı. Lakin, heç iki il keçməmiş Bizansın Cənubi Qafqaza viranedici yürüşlərlə çıxışa başlaması və bu çıxışların ağır vergilərlə nəticələnməsi Cavanşirdən sonra Albaniyaya başçılıq edən I Varaz Tiridatı da eyni zamanda "xəzərlərə, taciklərə (ərəblərə) və rumilərə (bizanslılara)" vergi vermək məcburiyyətində qoyur[9].

693-cü ildə Xilafət qoşununun barışığı pozan Bizansa qarşı çıxışı nəticə etibarilə imperator ordusunun məğlubiyyətinə, xəlifə valisinin Cənubi Qafqazda mövqeyinin möhkəmlənməsinə səbəb olur. Bununla belə, əhali hələ də hər üç

---

[6] Yenə orada, s. 126.
[7] Yenə orada, s. 129-130.
[8] Yenə orada, s. 136-137.
[9] Yenə orada, s. 186.

işğalçıya vergi ödəmək məcburiyyətində qalmışdı. 699-cu ildə xəzərlərlə münasibəti qaydaya sala bilmiş Albaniya hökmdarı Varaz Tiridat daha yaxın bildiyi Bizansa düşən vergi payından azad olmaq üçün üç oğlu ilə Konstantinopola getməli olur. Moisey Kalankatuklu ərəblərlə əlaqədə günahlandırılan alban hökmdarının beş il Bizansda saxlanılması və yalnız bundan sonra ölkəyə qayıtması haqqında məlumat verir[10]. Lakin Varaz Tiridat Albaniyada olmadığı müddətdə burada ictimai-siyasi, eləcə də ideoloji sahədə dəyişikliklər baş vermiş, bu isə həmin vaxtadək əsasən yalnız vergi almaqla kifayətlənən Xilafət üsul-idarəsinin ölkənin daxili işlərinə daha fəal müdaxiləsinə gətirib çıxarmışdı. Buna səbəb isə alban katolikosu Nersesin əsirlikdə olan hökmdar Varaz Tiridatın arvadı Sparamanın təşviqi ilə Bizans kilsəsinin etiqad etdiyi xalkidon (diofizi) təlimini Albaniyada yaymaq, bununla Bizansa daha çox meyilli olduğunu bildirmək olmuşdu. Xilafət-Bizans qarşıdurmasından bacarıqla istifadə edən erməni katolikosu İliyanın bu haqda xəlifəni xəbərdar etməsi bizanspərəst albanların cəzalandırılması, xəlifənin əmri ilə "albanlar arasında" ermənilərin "dininə uyğun dəyişiklik edilməsi" ilə nəticələndi[11]. Bu zamandan alban kilsəsi bilavasitə xəlifənin köməkliyilə erməni kilsəsinə tabe edildi. Bu, faktiki olaraq həmin dövrdə başsız qalmış ölkədə vəziyyətin son dərəcə gərginləşməsinə, Albaniyanın ideoloji qüvvəsi ilə yanaşı, siyasi gücünü də itirməsinə, az sonra bir dövlət kimi ləğvinə gətirib çıxaran ən mühüm amillərdən oldu.

### *VIII əsrin əvvəllərində siyasi vəziyyətin kəskinləşməsi, yeni inzibati idarə sisteminin yaradılması*

İstər yerli, istərsə də ərəb mənbələrində VIII əsrin ilk illərindən başlayaraq regionda siyasi hərc-mərcliyin artması, bizanspərəst yerli qüvvələrin ərəblərə qarşı çıxışları və bunlara cavab olaraq, xəlifənin "əl-Cəzirə, Azərbaycan və Ərminiyə" valisi təyin etdiyi Məhəmməd ibn Mərvanın burada həyata keçirdiyi zor siyasəti, baş verən qanlı döyüşlər haqqında məlumat verilir. Məlum olur ki, səngimək bilməyən

---

[10] Yenə orada, s. 186.
[11] Yenə orada,. 177.

ərəb-xəzər, ərəb-Bizans münaqişələri, eləcə də yerli əhali ilə ərəblər arasında gah bu, gah da digər tərəfin üstünlüyü ilə davam edən vuruşmalar Xilafəti bölgədəki mövqeyini daha da möhkəmlətməyə, Cənubi Qafqazda həyata keçirdiyi zor siyasətini şiddətləndirməyə sövq edirdi.

Moisey Kalankatuklu çıxılmaz vəziyyətə düşmüş alban hökmdarı I Varaz Tiridatın "bundan sonra... Şərq ölkəsini (yəni Albaniyanı, *N.V.*) taciklərə (ərəblərə) təslim edib, vergiləri də yalnız onlara göndərməsi" haqqında məlumat verir**[12]**. Lakin bu məcburi addım da, Xilafətin süzerenliyini qəbul edən ölkənin iflasının qarşısını ala bilmir. Qətiyyətli siyasət, ərəblərin bölgədəki mövqeyinin möhkəmlənməsi, Mihranilərin sonuncu nümayəndəsi I Varaz Tiridatın artıq bir neçə il davam edən nominal hakimiyyətinə son qoyulması, akademik Ziya Bünyadovun dəqiq nəticəsinə görə, Albaniyanın "hətta öz vassallığını" qəti şəkildə itirməsi ilə nəticələndi**[13]**. Bununla yanaşı, xəlifə Əbdülməlik ibn Mərvanın (685-705) həyata keçirdiyi yeni inzibati bölgü sistemi yaradıldı: son Sasanilər dövründə Xəzəryanı İran vilayətlərini, o cümlədən cənublu-şimallı Azərbaycan torpaqlarını özündə birləşdirən və o zaman "Azərbaycan" adlandırılan "Şimal vilayəti" yeni ərəb inzibati bölgüsünə görə iki vilayətə–canişinliyə ayrıldı. Araz çayının sağsahil hissəsi inzibati baxımdan "Ərəb Azərbaycanı–Azərbaycan" vilayəti adını aldı. Ərəblərin Cənubi Qafqaz ərazisində işğal etdikləri torpaqlar bütövlükdə "Ərəb Ərminiyəsi–Ərminiyə" vilayəti inzibati adı ilə dörd hissədə (I-IV Ərminiyə adları ilə) birləşdirildi**[14]**.

Bu məlumatı çatdıran IX əsr ərəb müəlliflərinin (İbn Xordadbeh, əl-Yəqubi, İbn əl-Fəqih, əl-Bəlazuri), görünür, informasiya müxtəlifliyindən irəli gələn, bir qədər fərqli məlumatının müqayisəsi VIII əsrin əvvəlində bir dövlət kimi ləğv edilən Qafqaz Albaniyasının, o cümlədən ucqar alban vilayəti əs-Sisəcanın (Sünikin) Arran vilayəti adı ilə I Ərəb Ərminiyəsi inzibati vahidinə daxil olunduğunu göstərir. İşğal prosesində Arran vilayətinə qatılan və 644-cü ildən müsəlmanların tabeliyinə keçən Tiflis şəhəri Bərdə, Beyləqan, Qəbələ və Şirvanla birlikdə I Ərəb Ərminiyəsi inzibati

---

[12] Yenə orada, s. 186.
[13] Буниятов З.М. Азербайджан в VII-IX вв.// Избранные сочинения в трех томах. т. I, Баку, 1999, с. 131.
[14] Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə (tarix, mənbələr, şərhlər). Bakı, 2016, s. 43-47.

vahidinə aid edilir. II Ərəb Ərminiyəsi isə bilavasitə ermənilərə aid olmayan, gürcülərə, ləzgilərə və digər yerli Qafqaz xalqlarına məxsus əraziləri birləşdirirdi. Bu zamandan başlayaraq xəlifənin təyin etdiyi valilər-canişinlər ərəblərin Arran (ər-Ran) və ya Yuxarı Azərbaycan adlandırdıqları Qafqaz Albaniyası da daxil olmaqla Cənubi (Aşağı) Azərbaycan qarışıq bütün regionu şəriksiz idarə etməyə başladılar. Bununla belə, xüsusilə dağlıq, qalalı bir çox yaşayış yerlərində, karvan yollarından kənarda qalan və buna görə bəzən qonşu yerlərə nisbətən ərəb müdaxiləsindən uzaq düşən ərazilərdə yaşayan yerli hakimlər, əl-Bəlazurinin təsdiq etdiyi kimi, müvafiq vergiləri ödəmək şərtilə öz mülklərində qala bilirdilər[15].

### *Azərbaycan ərazisində ərəb-xəzər müharibələri*

VIII əsrin əvvəllərində qüdrətli dövrünü keçirən Ərəb Xilafətinin xarici siyasətində əsas hədəf Bizans imperiyası olsa da, sonuncunun müttəfiqi kimi çıxış edən xəzərlərin demək olar, arası kəsilməyən basqınları ərəbləri istər-istəməz qüvvələri xəzərlərə qarşı çevirməyə məcbur edirdi. Belə ki, hətta əldə edilən qələbələrə rəğmən, xəzərlərin bölgənin içərilərinə gedib çatan hücumları, Xilafətin buradakı mövqelərini zəiflədə bilmişdi. Bu isə Xilafətin öz siyasətində dəyişikliklər edilməsi zərurətini yaratmışdı.

709-cu ildə dəfələrlə əldən-ələ keçən Dərbəndə sahib olmaq məqsədilə həyata keçirilən hücumla ərəblərin şimala doğru hərəkətlərinə çəpər olmuş xəzərlərə qarşı əsrin sonunadək qurtarmaq bilməyən qanlı müharibələr silsiləsi başlanır. Gah bu, gah da digər tərəfin üstünlüyü ilə keçən döyüşlər, demək olar, bütün Cənubi Qafqaz ərazisini əhatə etmişdi. Xəzərlərin 730/31-ci il yürüşü Xilafət üçün xüsusilə təhlükəli oldu. Dərbənd və Dəryal keçidlərindən Arrana hücum edən 300 minlik xəzər ordusu Arazı keçərək, uzun mühasirədən və ağır döyüşdən sonra Ərdəbili ələ keçirə bilir, daha sonra bölgənin dərinliklərinə, hətta Diyarbəkir və Mosuladək irəliləyir. Xilafət üçün yaranmış bu təhlükə xəlifəni bütün qüvvələri səfərbər etməyə, yeni ordu

[15] Əl-Bəlazuri. Kitab Futuh əl-Buldən., s. 210.

yaratmağa məcbur edir. “Müqəddəs” müharibədə–cihadda iştirak etmək üçün bütün müsəlman könüllüləri orduya dəvət olunur. Bərdə, Beyləqan, Varsan, Bərzənd və digər şəhərlər yenidən ərəblərin əlinə keçir; bölgədəki qalalarda yerləşən xəzər qarnizonları məhv edilir. Dərbənd yaxınlığında baş verən ağır vuruşmada ərəblər qalib gəlir.

Ərəb-xəzər müharibələri tarixinə ən gərgin dövrün başlanğıcı kimi daxil olan 737-ci ildə ərəblər xəzərlərin Səməndər şəhərinə, daha sonra xəzər xaqanının yaşadığı Beyda şəhərinə hücum edirlər. Xəzər xaqanı aman istəməyə, islamı qəbul etməyə məcbur olar. Əsir götürülən 40 min xəzər ailəsi Arrana gətirilərək, Samurla Şabran çayları arasında yerləşdirilir. Sonrakı 20 ildə ərəblər xəzərləri öz nəzarətləri altında saxlaya bildilər. Yalnız Əməvilər sülaləsi devrildikdə (750) Xilafətdə baş verən qarışıqlıqdan istifadə edən xəzərlər Beyda şəhərində olan xəlifə nümayəndələrini qətlə yetirirlər. Lakin xəlifə Mənsurun hakimiyyətə gəlməsi ilə (754-775) Bizansa qarşı həyata keçirilən əks tədbirlər, eləcə də xəzərlərlə münasibətdə tutulan barışdırıcı mövqe bu münasibətləri yeni mərhələyə daxil edir: bölgənin yeni valisi Yəzid əs-Suləmi xəzər xaqanının qızı Xatunla evlənir. Lakin iki il sonra Xatunun ölməsi xəzər-ərəb münasibətlərini yenidən kəskinləşdirir. 763/64-cü ildə xəzər qoşunları Şəki, Kambisena, Xozmas (Xaçmaz) və s. yerləri, Balasakan düzünü (Mil və Muğan düzləri), eləcə də gürcülərin bir sıra şəhər və qalalarını tuturlar. Lakin Dərbəndin müdafiəsini yara bilməyərək, Cənubi Qafqazı tərk edirlər. Xəzərlərin Arrana hücumları VIII əsrin sonlarında yenidən güclənir. Yalnız əsrin son ilində baş verən və xəzərlərinin qələbəsi ilə nəticələnən döyüşdən sonra, nəhayət, əldə edilmiş barışıq nəticəsində xəzərlərin yüz ildən çox davam edən yürüşlərinə demək olar son qoyulur.

### *Sosial-iqtisadi münasibətlər*

Ərəb fütuhatının ilk illərində işğal zonalarına nəzarət məqsədilə təyin olunan vali–canişin vəzifəsini, adətən, həmin yeri fəth etmiş qoşunun başçısı daşıyırdı. Ərəblərin siyasi tabeliyinin qəbul edildiyi ərazilərdə başlıca məqsədin vergi yığmaq

olduğu bu illərdə mülki və hərbi idarəçilik bir adama–həmin başçıya həvalə olunurdu. Ona görə də *amil* ("vergiyə nəzarət edən") və *əmir* ("hərbi başçı") vəzifələrini də vali–canişin icra edirdi. İşğalın geniş vüsət tapdığı sonrakı illərdə isə artıq *əmir, amil,* eləcə də *qazi* (məhkəmə işlərinə baxan dini hakim) vəzifələrini artıq ayrı-ayrı şəxslər daşıyırdı. Həmin dövrdə yerli üsuli-idarəyə nisbi sərbəstlik verildiyi üçün ərazilərin idarə olunmasında yerli hakimlər ilə yanaşı yüksək rütbəli ruhanilər də iştirak edirdilər. Bu isə, mərkəzi hakimiyyətin zəiflədiyi dövrdə bağlanılmış müqavilələrin şərtlərinin pozulmasına, vergilərdən imtina olunmasına, yeni münaqişələrə, eyni yerin yenidən işğalına, yeni, daha ağır şərtli müqavilənin bağlanmasına səbəb olurdu.

İşğalın gedişi prosesində təyin olunan ilk canişinlər yerli hakimlərlə, bəzən isə yerli əhali ilə aman-sülh müqaviləsi bağlayır, onlardan siyasi asılılıq, islamı qəbul etmədikləri, əvvəlki dini etiqadı saxladıqları təqdirdə digər vergilərlə yanaşı üstəlik "can vergisi"-*cizyə* də tələb edir, əvəzində keçmiş imtiyazlarını saxlamağa boyun olur, bəzilərinə hətta vəzifə də verirdilər. Həmçinin "yeniyetmə, qadın və yaşayış vəsaitindən məhrum xroniki xəstələr, dünya malından heç nəyi olmayan guşənişin dindarlar" vergidən azad olunurdular. Ərəblər isə yerli əhalinin əmlakına, dini icmalarına, qanun-qaydalarına aman verməyi öhdələrinə götürürdülər.

Ərəblər işğal olunan iri Azərbaycan şəhərlərində hərbi qarnizonlar yerləşdirir, mövqelərinin möhkəmləndirilməsi məqsədilə bölgəyə böyük miqdarda ərəb əhalisi köçürürdülər. Mənbələrdəki (əl-Bəlazuri, İbn əl-Fəqih və b.) məlumata görə Kufədən, Bəsrədən və Şamdan olan bu köçkünlər haqq-nahaq yerlilərin torpaqlarını tutur, zəbt edir, bütöv kəndlər onların himayəsinə keçir, kəndlilər isə ərəblərin yardarına çevrilirdilər. Əməvilər sülaləsi dövründə (661-750) şimal, Abbasilər dövründə (750-1258) isə cənub ərəb tayfaları böyük axınla Azərbaycana gəlmişdilər**[16]**. Bu axının qarşısını yalnız ölkədə baş qaldıran güclü dini-siyasi hərəkat ala bildi.

[16] Bax: Əl-Bəlazuri. Kitab Futuh əl-Buldən., s. 330; İbn əl-Fəqih. Muxtasar kitab əl-buldən./M.de Quyenin nəşri.BGA, Leyden, 1880, c. 5, s. 255.

Ərəblərlə azərbaycanlılar arasında bağlanılan müqavilələrin şərtləri aradakı münasibətləri tənzimləyirdi. Bu müqavilələrin məzmunundan görünür ki, yalnız bütpərəstlər zorla müsəlmanlaşdırılır, yerdə qalan əhaliyə isə əvvəlki etiqad və adətlərinə riayət etmək icazəsi verilirdi. "Əhli-kitab" (yəni müqəddəs dini kitabı olan) xristian və yəhudi əhali, eləcə də ilk çağlar atəşpərəst olan azərbaycanlılar əvvəlki etiqadlarında qalır, əvəzində can vergisi-cizyə verirdilər. Ərəblərin digər monoteist etiqadlı dindarlara olan liberal münasibətləri əhalisinin əksəriyyəti xristian olan qonşu Cənubi Qafqaz xalqlarına cizyə ödəməklə öz xristian dinlərində qalmalarına imkan verdi; bu xalqlardan fərqli olaraq Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etdi. Buna, bəlkə də, ən mühüm səbəb şimallı-cənublu tarixi Azərbaycan ərazisində dini etiqadlarına görə bütpərəst, tanrıçı və zərdüşti olan qeyri-xristian albanların, türkdilli və irandilli əhalinin üstünlük təşkil etməsi oldu. Bununla belə, yeni dinə keçmə prosesi sürətli olmamış, xüsusilə Azərbaycanın xristian əhalisinin çox olduğu şimal hissəsində daha uzun çəkmişdi. Bu prosesin birinci mərhələsində islamı yayan əsas qüvvə ərəblərin özləri idisə, islamın mədəni gücünün artdığı IX əsrin sonu-X əsrin əvvəllərində isə müsəlmanlaşmış yerli əhali oldu. Bununla belə, hətta X-XII əsrlərdə də Azərbaycana gələn coğrafiyaşünas-səyyahlar (əl-İstəxri, əl-Ğərnati və b.) xüsusilə dağ kəndlərində müxtəlifdilli bir çox "kafirlər"in, eləcə də "islamı qəbul etməyən, cizyə də verməyən", dəfn mərasimlərinə görə atəşpərəst olduqları görünən adamlara rast gəlmişdilər[17].

Ərəblərlə bağlanılan müqavilənin digər şərtinə görə, öz dinində qalan yerli əhali xəzinəyə *cizyə* ilə yanaşı islamı qəbul etmiş digər soydaşlarından da alınan torpaq vergisi-*xərac* da ödəyirdi. Lakin, qeyri-müsəlmanlardan bu vergi hətta ikiqat həcmdə alınırdı. Müsəlmanlar isə həmçinin *xüms*-mülkiyyətdən və əmlakdan alınan gəlirin beşdə birinə bərabər, *zəkat*-yoxsulların xeyrinə varlı müsəlmanların əmlakından tutulan, *uşr*-məhsulun onda birinə bərabər vergilər, eləcə də *zəkat əl-fitr*-orucluğun başa çatması münasibətilə verilən pay-fitrə, *sədəqə*-yoxsullara verilən ianə ödəyirdilər. Əməvilər dövründə vergilər daha çox natura ilə, Abbasilər

[17] Əl-İstəxri. Kitab Məsəlik əl-məməlik./M.de Quyenin nəşri.-BGA, Leyden, 1870, c. 1, c. 192; Əl-Ğərnati əbu Həmid əl-Əndəlusi. Kitab tuhfatu-l-əlbab va nuhbətu-l-ə'cab./Q.Ferranın nəşri.Paris, 1925, s. 86.

dövründə isə yalnız bir hissə natura ilə ödənilirdi. Mənbələrdə xəlifə əl-Mənsur (754-775) dövründə Şirvanda (Bakıda) neft və duz üzərinə də vergi qoyulduğu haqqında məlumat var[18].

Xilafətdəki torpaqlar beş əsas kateqoriyaya bölünürdü: *sultan* (və ya xəlifə) mülkləri, becərilən torpaqların əksəriyyətini təşkil edən *iqta* torpaqları, *mülk* torpaqları, əsasən dini qurumlara təhkim edilən *vəqf* torpaqları, kənd əhalisinə mənsub *icma* torpaqları.

### *Xilafətə qarşı dini-siyasi hərəkatın güclənməsi. Xürrəmilər hərəkatı*

Ərəblərin Qafqaz cəbhəsində əldə etdikləri uğurlara baxmayaraq, Xilafətin başqa yerlərində olduğu kimi, burada da mərkəzi hakimiyyət əleyhinə daha da artan çıxışların qarşısını almaq artıq gündən-günə çətinləşirdi. Bərdədə iqamətgahı olan valinin yerli əyanların hakimiyyətlərini məhdudlaşdırmaqda davam etməsi, onları ağır vergilərə məruz qoyması, bununla yanaşı bölgədə Ərəbistandan gəlmə tayfa və qəbilələrin yerləşdirilməsi üçün şərait yaratmağa çalışması siyasi durumu həddən artıq gərginləşdirmişdi. VIII əsrdə müsəlmanların şimala doğru yollarını kəsmiş xəzərlərin ölkə ərazisinə hücumlarının getdikcə daha da intensivləşməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan ərəblərin buradakı mövqeyini xeyli zəifləmiş, bununla yanaşı vergi zülmünə dözümsüz olan yerli əhalinin güzəranını daha da çətinləşdirmişdi. Xəlifənin təyin etdiyi hakimlər başqa yerlərdə olduğu kimi Azərbaycanda da özbaşınalığı davam etdirir, ağır vergilərlə yerli əhalini var-yoxdan çıxarırdılar. Cana doymuş kəndlilər kütləvi şəkildə kəndlərini tərk edir, torpaqsızlaşırdılar. Bu torpaqları ələ keçirən iri torpaq sahibləri isə hətta bütöv kəndləri ərəb qəbilələrinin himayəsinə verir, torpaqsızlaşmış kəndlilər onların yardarlarına çevrilirdilər.

Qurtarmaq bilməyən hərbi çəkişmələr, hədsiz ağırlaşmış həyat tərzi yerli əhalini cana gətirmişdi. Hələ VII əsrdən Kiçik Asiyada və Qafqazda, o cümlədən

[18] Əl-Bəlazuri. Kitab Futuh əl-Buldən., s. 210.

Albaniyada yayılan pavlikianlar hərəkatı bu və sonrakı illərdə yerli və gəlmə feodallara qarşı çevrilmiş ideologiya olmuşdu. Əl-Məs'udu "baylakani" adlandırdığı bu təriqətin xristianlıq və atəşpərəstlik arasında orta mövqe tutduğunu bildirir[19]. Həmin təriqətin daşıyıcılarının ilkin təlimində xeyir dünyası ilə şər dünyası arasında mübarizə təsəvvürü əsas yer tuturdu. Erməni və alban kilsələri "dönük, bidətçi" adlandırdıqları, həmçinin ərəb ağalığına qarşı çıxan pavlikianları "şeytan uşaqları" elan edərək, onlarla mübarizə aparırdılar[20]. Xilafətin mərkəzində də vəziyyət sabit deyildi. Rəsmi ideologiya olan sünniliyə qarşı mübarizədə ona müxalif olan şiə hərəkatı daha da fəallaşmışdı. Hakimiyyətin tez-tez dəyişməsi Xilafəti bürümüş dini-siyasi hərəkatın qarşısını ala bilmədi. Hətta ərəb tarixçisi əl-Kufinin dediyinə görə əvvəllər Qafqazda vali olan Mərvan ibn Məhəmmədin taxta çıxması ilə (744-cü ildə) Azərbaycanda və Ərminiyədə iğtişaşlar başlandı[21]. Ərəb üsul-idarəsinə qarşı yönəlmiş bu hərəkatın başında "qəssab" ləqəbli beyləqanlı Müsafir dururdu. Zara gəlmiş xalqın köməyilə ölkənin xeyli hissəsi üsyançıların əlinə keçdi. Lakin, Abbasilərin hakimiyyətə gəlməsilə (750) üsyançılara qarşı göndərilmiş 100 minlik qoşun iğtişaşın qarşısını aldı, Müsafir öldürüldü. Bununla belə, Xilafətin hər yerində olduğu kimi Azərbaycanda da iqtidara qarşı yönəlmiş hərəkat daha da gücləndi. 755-ci ildə Abbasilər sülaləsini hakimiyyətə gətirmiş Əbu Müslim Xorasaninin xəlifənin əmrilə qətlə yetirilməsi Xorasandan Azərbaycanadək hər yeri üsyana bürüdü. Müxalif şiə hərəkatı daha da fəallaşdı. Bu hərəkatın zəminində yaranmış bir çox təriqətlərin (həsənilər, zeydilər, ismaililər, ifrat şiələr, xürrəmilər və b-nın) Azərbaycanda da fəaliyyət göstərən tərəfdarları ideoloji mübarizəni siyasi məcraya yönəldərək, Abbasilərin hakimiyyətinə qarşı çıxışlar etdilər. 778/79-cu ildə Azərbaycanın cənub hissəsində, eləcə də Curcan, Təbəristan, İsfahan və b. yerlərdə "əl-muhəmmirə"-"qırmızı geyinmişlər" adı ilə məşhur olan xürrəmilərin çıxışı baş verdi. Lakin bu çıxış da yatırıldı. VIII əsrin 60-cı illərində xəzərlərin artan hücumları nəticəsində əhalinin güzəranının pisləşməsi, vergi zülmünün artırılması yeni üsyan

---

[19] Əl-Məs'udi. Muruc əz-zəhəb./Maçoudi. Les Prairies d'or./Barbye de Meynarın nəşri./Paris, 1836, c. 2, s. 74-75.
[20] Буниятов З.М. Азербайджан в VII-IX вв., s. 247-250.
[21] Ахмад ибн А'сам ал-Куфи. Книга завоеваний. Bakı, 1981, s. 58.

və çıxışlara səbəb oldu. 794-cü ildə Beyləqanda başlayan üsyanın başında *xaricilər* (ərəbcə *əl-xəvaric*)-657-ci ildə yaranmış dini-siyasi islam təriqəti. Bu təriqətin üzvləri özlərini "əş-şurat" (əş-şəri) adlandırırdılar) təriqətinə mənsub "əş-şəri" ləqəbli Əbu Müslim dururdu. Üsyan çox keçmədən Bərdə, Naxçıvan, Süni və digər yerlərə yayılır. Üsyançıların əldə etdikləri ilkin uğurlara baxmayaraq, Əbu Müslimin qəfil ölümü tədricən zəifləyən hərəkatın uğursuzluqla nəticələnməyinə səbəb oldu. Lakin, Xilafətin sonrakı sərt tədbirləri də iğtişaşları səngidə bilmədi. VIII əsrin son illərində cizyə verməkdən imtina etmiş dərbəndlilərin, qarışıqlıqdan istifadə edərək mərkəzin tabeliyindən çıxmağa cəhd göstərən şirvanlıların çıxışları da amansızlıqla yatırılır. Məhz bu dövrdə Arran ərazisinə hücum edən xəzərlərin də qarşısı alınır. Bununla da, iki gəlmədən biri üçün qələbə, digəri üçün məğlubiyyət olan, bir əsrdən çox davam edən soyğunçu yürüşlər silsiləsinə–Azərbaycan torpaqlarında baş verən ərəb-xəzər qarşıdurmasına demək olar son qoyulur. Xəlifə Harun ər-Rəşidin "Azərbaycan, Ərminiyə, Arran və Bab əl-Əbvab" valisi təyin etdiyi Yəzid ibn Məzyədin (799-801) həyata keçirdiyi barışdırıcı tədbirlər (bölgədə məskunlaşmış bir-birinə rəqib şimal və cənub ərəb tayfalarını bərabərləşdirməsi, yerli hakimlərin oğullarına vədverici məktublarla müraciəti və s.) əhalinin sakitləşməsinə səbəb oldu.

778-ci ildə "əl-muhəmmirə"-"qırmızı geyinmişlər" adı ilə məşhur olan xürrəmilərin Curcanda başlayan ilk məlum çıxışı uğursuzluqla nəticələnsə də, onların əsası məzdəkiliklə bağlı ideyalarının təbliği Xilafətin demək olar bütün vilayətlərində, xüsusilə, IX əsrin əvvəllərində daha geniş vüsət aldı. Mənbələr xürrəmilərin 808-ci ildə Azərbaycanda başlayan, daha sonra İsfahan, Rey, Həmədan və başqa yerlərə yayılan yeni çıxışlarının da amansızlıqla yatırılması haqqında məlumat verir[22]. Xürrəmilərin sıralarını seyrəldən bu məğlubiyyət, eləcə də xürrəmi rəhbərləri Əbu İmranla Bəzz qalasının sahibi Cavidan arasında hakimiyyət uğrunda davam edən ədavət hərəkatın zəifləməsinə, ərəblərə qarşı yönəldilmiş çıxışların xeyli səngiməsinə səbəb oldu. 816-cı ildə açıq meydanda üz-üzə gələn xürrəmi

[22] İzzəddin İbn əl-Əsir. Əl-kamil fi-t-tarix./Ərəbcədən tərcümə, akademik Ziya Bünyadov.-Bakı, 1995, s. 28.

başçıları arasında baş verən döyüş hər ikisinin həyatına son qoyur. İcmaya rəhbərlik Cavidanın ən yaxın silahdaşı gənc Babəkə keçir. Məhz o, xürrəmilər hərəkatının məcrasını dəyişir, onu tamamilə doğma torpaqları işğal etmiş Xilafət üsul-idarəsinə qarşı yönəldir. Lakin xürrəmi-babəkilər ərəblərin yalnız siyasi hakimiyyətinə qarşı deyil, o dövrdə Azərbaycanda hələ tam mənimsənilməmiş ideologiyalarına qarşı da çıxırdılar. "Xürrəm" terminini açıqlamağa cəhd göstərən orta əsr ərəb alimləri (hətta bəzi müasir tədqiqatçılar da) çox halda Xilafətin mənafeyindən çıxış edərək, bu sözün zahiri mənasına (farsca "şad, xürrəm") üstünlük verir, xürrəmiləri pozğunluqda və əyyaşlıqda ittiham edirdilər. Son tədqiqatlar "Avesta"dakı *xürrə* ("xvarnah" və ya "xvarena") terminină istinadən bu sözün "ilahi işıq, mənəvi işıq" anlamını açıqlayır. Xürrəmilikdə də işıqla qaranlıq arasında mövcud ziddiyyət özünü Xeyirlə Şərin mübarizəsində göstərir. Onların sosial təlimi yer üzündə işığın qüdrətilə ədalətli cəmiyyət yaratmağın mümkünliyinə əsaslanır. Xürrəmilər "hülul" (Tanrının insanda həll olması, təcəssüm etməsi) və "tənasux" (ruhun ölməyib, bir bədəndən başqasına keçməsi) təlimlərindən çıxış edirdilər. Onların sosial ədalət ideyasını irəli sürmələri, torpaq və əmlak üzərində xüsusi mülkiyyəti ləğv etmək cəhdləri orta əsrlər mühitində mühüm ictimai hadisə idi. Tədqiqatlar göstərir ki, artıq Babəkin başçılıq etdiyi xürrəmi-babəkilər öz ideya və əməlləri ilə dövrün digər çıxışçılarından fərqlənir, ifrat şiəçilərə və batinilərə yaxınlaşan xürrəmdinilərdən fərqli olaraq əsası məzdəkiliklə bağlı yeni görüş yaratmışdılar.

Beləliklə, xürrəmilərin "tənasux" təliminə görə Cavidanın ruhu bədəninə keçmiş Babək müəlliminin "doğma torpağa sahib olmalı, zalımları (yəni ərəbləri) məhv etməli, məzdəkiliyi dirçəltməli" vəsiyyətinə əməl etmək üçün Azərbaycan və Arrandan böyük qüvvə toplayır. Onun başçılığı ilə təqribən 21 il davam edən mübarizə Ərəb Xilafətinə ağır zərbə vurdu, onun əsaslarını sarsıtdı. Babəkin sayı minləri (bəzi mənbələrə görə hətta yüzmini) aşan qoşunu Adin, Tarxan, Rüstəm, Abdulla, Müaviyə kimi sərkərdələrin başçılığı ilə qısa müddətdə böyük uğurlar qazandı. Bu hərəkatın təsirilə Xilafətin tabeliyində olan böyük bir region (Cibəl, Təbəristan, İsfahan, Fars, Kuhistan və b.) ayağa qalxmışdı. Xürrəmilərin qazandıqları uğurlar xəlifə əl-Məmunu (813-833) ciddi addımlar atmağa məcbur

etdi. İlk uğursuz hücumlardan sonra xəlifə qoşununun əldə etdiyi qələbə davamlı olmadı. 829-cu ildə Həştadsər dağı yaxınlığında xürrəmilərin istinadgahı Bəzz qalasını ələ keçirmək istəyən ərəblərlə baş verən qanlı vuruşma otuz minə yaxın xəlifə döyüşçüsünün həyatına son qoydu. 830-cu ildə Babəkin qoşunu Həmədanı tutmaqla Xilafəti Şərq torpaqları ilə birləşdirən əsas strateji və tranzit yollarından məhrum edir. Babəkin Bizansla əlaqə yaratmaq cəhdlərindən xəbər tutan xəlifə əl-Mutəsim (833-842) Bizansla sülh bağlayıb, bütün qüvvələrini Babəkə qarşı çevirir. Bizans-Xilafət müharibəsində şöhrət qazanmış sərkərdə usruşanalı türk Afşin Heydər ibn Kavus ərəb qoşunlarının hərbi başçısı təyin olunur. Təkcə 837-ci ildə Babəklə müharibəyə bir milyon dirhəm xərclənir. Afşinin özünə Babəklə vuruşduğu hər günə görə 10 min, hərbi əməliyyatlar olmayan günlərdə beş min dirhəmin ödənilməsi təmin edildi. Bütün bu tədbirlər, eləcə də mülklərinin əldən gedəcəyi qorxusu xürrəmilərə qoşulmuş yerli feodalların onlardan uzaqlaşmasına, hətta bəzilərinin xəyanətkarlıqla ərəblərə qoşulmasına səbəb oldu. 836-cı ildə Babəkin ən cəsur və bacarıqlı sərkərdəsi Tarxanın xəyanətkarcasına qətlindən sonra hərəkat iştirakçıları bircə dəfə də qələbə qazana bilmədilər. Yeni qüvvələrlə möhkəmləndirilmiş xəlifə ordusu nəhayət 837-ci ilin 26 avqustunda uzun və ağır döyüşlərdən sonra xürrəmilərin əsas istinadgahı və son sığınacağı olan Bəzz qalasını ala bilir. Hər iki tərəfin on minlərlə döyüşçüsü həlak olur. Minlərlə əsir ələ keçirilir. Babək özü isə kiçik dəstə ilə mühasirəni yararaq, Bizansa getmək üçün Araz çayını keçir. Hələ babəkilər hərəkatının ilk illərində ərəblərə qarşı çıxışları ilə ad çıxarmış, Moisey Kalankatuklunun "çar nəsli Mihranilərdən olan", "cəsur və əzəmətli arranşah knyaz Səhl ibn Sumbat"[23] adlandırdığı alban məlikinin qalasında sığınacaq tapır[24]. Xilafətlə barışığın vacibliyini dərk edən Səhl xəyanətkarcasına Babəki ərəblərə təslim edir. Lakin ona güman etdiyi kimi fəxri xələtlə "batrik tacı" təqdim olunsa da, "Ərminiyə, İberiya və Albaniya" üzərində vəd olunmuş ali hakimiyyət verilmir. Bəzi mənbələrə (məs. Tovma Arsruni) görə, Səhlin hökmü yalnız mülkü olan "Şake"dən (Şəkidən) kənara çıxmırdı. Əsir alınmış Babək isə 838-ci il yanvarın

---

[23] Kalankatuklu M. Albaniya tarixi., s. 197, 194.
[24] Daha ətraflı: Буниятов З.М. Азербайджан в VII-IX вв., с. 287-294.

4-də (bəzi mənbələrə görə martın 14-də) Xilafətin paytaxtı Samirə şəhərində ağır əzablarla edam olunur. Hətta təəssübkeş orta əsr ərəb müəllifləri də edam zamanı mərdlik və mətanət nümayiş etdirən Babəkə heyranlıqlarını gizlətmirlər. Xürrəmilər hərəkatı məğlubiyyətə uğrasa da, bu qələbəni "islamın ən böyük qələbəsi", Babəkin əsir alındığı günü "müsəlmanların bayram günü" hesab edən ərəblərə çox baha başa gəlmiş, Xilafətin 225 min döyüşçüsü və xeyli sərkərdəsi məhv edilmişdi. Nizamülmülkün sözlərinə görə, xəlifə əl-Mütəsimin islamı şöhrətləndirən üç qələbəsi olmuşdu: birinci qələbə ər-Rum, ikinci qələbə Babək, üçüncü qələbə Təbəristandan olan Gavur  Məzyər üzərində idi. Onun fikrincə bu qələbələrdən biri baş tutmasaydı "islam məhv olardı"[25].

Xilafət tarixində baş verən dini-siyasi çıxışların ən əzəmətlisi olan, ərəb üsul-idarəsinə qarşı xalq azadlıq müharibəsi səviyyəsinə ucalan xürrəmilər hərəkatının məğlubiyyətlə nəticələnməsinə baxmayaraq, artıq ərəb imperiyasının parçalanma prosesi başlanmışdı. Hərəkat və onun başçısı məhv edilsə də, xürrəmilərin alışdırdıqları alovun qığılcımları imperiyanın ayrı-ayrı yerlərində, hətta qonşu Bizans ərazisində də yeni yanğınlara səbəb olmuşdu. Artıq, xəlifə əl-Vasiqin (824-847) dövründə, ərəblərin tabeliyində olan bütün Cənubi Qafqaz, demək olar başdan-başa müqavimət meydanına çevrilmişdi[26]. Nizamülmülk Babəkin xürrəmi ardıcıllarının bu dövrdə Xilafətə qarşı çevrilmiş bütün yeni çıxışlarda iştirak etmələri haqqında məlumat verir[27]. Xəlifə əl-Mutəvəkkilin dövründə (847-861) ərəb üsul-idarəsinə qarşı yönələn çıxışlara qarşı cəza tədbirləri görüldü; xürrəmilərlə mübarizədə iştirak etmiş sərkərdə Böyük Buğa (Buğa əl-Kəbir) Qafqaza göndərildi. Yerli və ərəb mənbələrinin məlumatına görə, o, Cənubi Qafqazda Xilafətə qarşı çıxmış yerli hakimləri Samirə şəhərinə, xəlifənin hüzuruna  aparır. Bölgədə bundan sonra yaranan nisbi sakitlik uzun sürmür. Çox keçmədən zəifləmiş Xilafətin hər yerində olduğu kimi tarixi Azərbaycan ərazisində də yerli hakim və canişinlərin

[25] Сиасет-намэ. Книга о правлении вазира XI столетия Низам ал-Мулька./Пер. введение и примеч. проф. Б.Н.Заходера.-М.-Л., 1949, с. 227-228.
[26] Əl-Yəqubi. Tarix, c. II, s. 587-588.
[27] Сиасет-намэ. Книга о правлении вазира XI столетия Низам ал-Мулька., с. 228.

separatizminin güclənməsi nəticəsində mərkəzi hakimiyyətdən ayrılma prosesi başlanır.